**L.İ.HACIYEVA**
*e-mail: lhajiyeva92@gmail.com*
**:https://orcid.org/0009-0004-1527-8600**

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

**10.62021/0026-0028.2025.2.303**

# ŞƏXSİYYƏTİN İNKİŞAFINDA YARADICI DÜŞÜNMƏ KOMPETENSİYASININ ROLU

***Xülasə.*** *Tədqiqat göstərdi ki, şəxsiyyətin inkişafı zamanı əsas səriştələr öz təbiətinə və tətbiq olunma dərəcəsinə görə ən universal səriştələr kimi başa düşülür. Onların formalaşması hər bir tədris fənni çərçivəsində həyata keçirilir, mahiyyət etibarilə onlar fənnüstü hesab olunurlar. Səriştə təkcə bilik və bacarıqlarla məhdudlaşdırılmır. Səriştə praktikada bilik və fəaliyyət arasında mövcud olan münasibətlər sahəsidir. Müxtəlif səriştələrin təhlili onun kreativ (yaradıcı) istiqamətə malik olduğunu göstərir. Xüsusilə kreativ səriştələrə aşağıdakıları aid etmək olar: "təcrübədən yararlana bilmək", "problemi həll etmək bacarığı", "keçmiş və yeni hadisələr arasında əlaqəni üzə çıxarmaq", "yeni həll yolları tapmağı bacarmaq".*
*Eyni zamanda, şagirdlərin yaradıcı səriştələri ilə bağlı bilik, bacarıq, fəaliyyət metodları və təcrübəsinin bütün kompleksini hərtərəfli təqdim etmək üçün bu bacarıqların göstəriciləri hələ kifayət deyildir.*

***Açar sözlər:*** *ibtidai təhsil, yaradıcı düşünmə qabiliyyəti, şəxsiyyətin inkişafı, təhsil müəssisələri, kompetensiya*

İbtidai ümumi təhsilin dövlət sənədlərində [1; 2] və Azərbaycan təhsilinin modernləşdirilməsi Konsepsiyasında [3] qeyd olunduğu kimi Respublika təhsil sistemi yeniləndi və bu iş ümumi inkişafın yeni tendensiyaları ilə əlaqədar aparıldı. Yenilənmə təhsilin əsas məqsədinə uyğun olaraq təhsil müəssisələrinin müxtəlif səviyyələri üzrə həyata keçirildi və bu mərhələdə məzunların səriştələrinin formalaşması və inkişafı prosesi baş verdi. Bu dəyişikliklər məktəb təhsilinin bütün pillələrinə, o cümlədən ibtidai məktəbə də öz təsirini göstərdi. İbtidai ümumi təhsilin dövlət standartlarında belə bir müddəa vardır ki, "..ümumtəhsil məktəbi universal bilik, bacarıq, vərdişlərin vahid sistemini, habelə şagirdin şəxsi məsuliyyət və müstəqil fəaliyyət təcrübəsini, yəni müasir təhsilin keyfiyyətini müəyyən edən əsas səriştələri formalaşdırmalıdır" [3, s.9].

Söhbət təhsilli insanın yeni ölçü vahidi kimi səriştəsindən gedir. Burada əsas diqqət öyrənilən bilik, bacarıq və bacarıqların məcmusuna deyil, müxtəlif problemli situasiyalarda hərəkət etmək bacarığı kimi qəbul edilən təlim nəticələrinə yönəldilir.

Araşdırmamızdan aydın oldu ki, dünya təhsilində səriştəli yanaşmaya keçid ilk dəfə Rusiya məktəblərində müşahidə olundu. Və təhsilə belə yanaşmanın aktuallığı Rusiyada 2000-2010-cu illərdə PİSA (Programme for International Student Assessment) proqramı çərçivəsində məktəblilərin beynəlxalq sınaqlarının nəticələri ilə təsdiqlənir. Aparılan tədqiqatlar məktəb təliminin nəticələri ilə cəmiyyətin tələbi arasındakı uyğunsuzluğu göstərdi. Nəticədə bütün ölkə iştirakçıları üçün riyaziyyat və təbiət elmləri, qiraət üzrə savad dərəcəsini və problemləri həll edəcək bacarıqların səviyyəsini qiymətləndirməyə imkan verən vahid təchizatlar işlənilib hazırlandı (kompleks və ya strukturlaşdırılmış tapşırıqları nəzərdə tutan testlər). Problemin həllində səriştənin qiymətləndirilməsi kimi sonuncu istiqamət müəyyən tədris fənləri və ya təhsil sahələri ilə birbaşa əlaqəsi olmayan, lakin real həyatda tez-tez rast gəlinən və müxtəlif sahələrdəki bilik və bacarıqların kompleks istifadəsini tələb edən problemləri həll etmək bacarığını nəzərdə tutur. Məktəb təhsilinin çatışmazlıqları nisbətən şagirdlərin qeyri-adi mühitdə oriyentasiya bacarığı tələb edən fənlərarası həyat problemlərini həll etməyi qiymətləndirmək-

də, zəruri məlumatları, mövcud maneələri müəyyən edib, mümkün alternativlər və həllər tapmaqda, strategiyalar hazırlamaq və nəhayət, problemlərin şagirdlərin özləri tərəfindən həllində, tapılan həll yollarını təqdim etməkdə və əsaslandırmaqda ən aydın şəkildə aşkar edilmişdir. Ümumi təhsilin kifayət qədər mürəkkəb fənn istiqamətli olması və məktəb tapşırıqları ilə real həyat vəziyyəti arasındakı zəif əlaqə Respublikamıza yüksək nəticələr əldə etməyə imkan vermədi. Tədqiqat məktəb proqramlarını mənimsəmə səviyyəsini müəyyən etməyə deyil, şagirdlərin əldə etdikləri bilikləri həyat təcrübələrinə tətbiq etmək bacarıqlarını qiymətləndirməyə yönəldilmişdir. Bu, ümumtəhsil sahəsində həyata keçirilən siyasətin uğurunu və səmərəliliyini müəyyən edə bilən müasir tendensiyaları əks etdirir.

Beləliklə, aydın oldu ki, Azərbaycan məktəbliləri aşağıda göstərilənləri ürəkaçan səviyyədə bacarmır: a) praktiki tapşırıqları müəyyənləşdirməyi; b) onları formulə etməyi; c) problemi format tapşırığına çevirməyi; d) əldə olunmuş biliklərin konteksti ilə onları əlaqələndirməyi; e) nəticələri təhlil edib, qiymətləndirməyi. Onlara yalnız öyrəndiklərini təkrar etmək və tapşırıqları "nümunə üzrə" həll etməyi öyrədiblər.

Buradan belə bir nəticə də hasil olur ki, təhsilin məzmunu və təşkili yalnız hazır ensiklopedik biliklərin şagirdlərə ötürülməsini təmsil etməməli, həm də uşaqlara əldə edilmiş bilikləri praktikaya tətbiq etməyi öyrətməlidir.

XX-ci əsrin sonu - XXI əsrin birinci qərinəsi üçün səciyyəvi olan təhsilin xarakterində, onun istiqamətində, məqsəd və məzmununda dəyişikliklər getdikcə daha aydın şəkildə fərdin sərbəst inkişafına, yaradıcı təşəbbüsə, şagirdlərin müstəqilliyinə, rəqabət qabiliyyətinə və gələcək mütəxəssislərin mobilliyinə yönəldilmişdir. Bununla belə, dünyada və Respublikamızda təhsil məqsədilə bağlı baş verən dəyişikliklər, xüsusən də insanın sosial aləmə daxil olması, onun dünyaya fəal adaptasiyasını təmin etmək kimi qlobal vəzifələrlə əlaqədar olaraq, təhsilin daha dolğun, şəxsi və sosial inteqrasiya olunmuş nəticə ilə təmin edilməsi məsələsinin gündəmə gəlməsini zəruri etdi. Təhsilin nəticəsi kimi inteqrasiya olunmuş sosial-şəxsi-davranış fenomeninin ümumi müəyyənliyində də "səriştə-səriştəlilik" anlayışından istifadə edilmişdir.

Biz, pedaqoji hadisə kimi intellektual-yaradıcı səriştələri öyrənərkən ilk öncə onun əsasları haqqında biliklərə istina etməyi qərarlaşdıq. Azərbaycan dilinin izahlı pedaqoji lüğətində "əsas" anlayışı "mənbə, bir şeyin təməli", "bir şeyin ilkin, mühüm müddəaları" kimi şərh olunur [5, s.263]. İntellektual-yaradıcı səriştəliliyin inkişafı və formalaşması probleminin tədqiqi ilə əlaqədar qarşıya belə suallar çıxır: kiçikyaşlı məktəblilərin tədris-yaradıcı təfəkkür fəaliyyətinin əsasları, intellektual-yaradıcı səriştələrin formalaşması üçün pedaqoji şərtlər, intellektual-yaradıcı səriştələrin funksiyaları nələrdən ibarətdir.

Bu suallara biz təbiətin və cəmiyyətin çoxsaylı bütöv hadisələrini dərk etmək vasitəsi kimi özünü doğrultmuş sistemli yanaşma mövqeyindən cavab axtardıq. Mürəkkəb obyektlərin tədqiqinə dair mövcud çoxsaylı yanaşmalar arasında ilk dəfə L.Bertalanfi tərəfindən xüsusi konsepsiya kimi işlənilib hazırlanmış sistemlərin ümumi nəzəriyyəsi mühüm yer tutur. Bu konsepsiyanın əsas məqsədi bir-biri ilə əlaqədə olan komponentlər kompleksi kimi başa düşülən sistemə əsaslanaraq, müxtəlif siniflərin sistemlərinin fəaliyyət və inkişafını izah edən qanunlar toplusunu tapmaq idi. Ümumi sistemlər nəzəriyyəsində sistem dedikdə müxtəlif elementlərin qarşılıqlı əlaqəsi başa düşülür, yəni bir-biri ilə əlaqəli hissələrdən ibarət olan hər şey sistem adlanır [6].

Ümumi metodoloji və fəlsəfi aspektlər nəzərə alınmaqla sistemli yanaşmanın nəzəri cəhətdən əsaslandırılması ardıcıllığı B.F.Lomovanın əsərlərində verilmiş və inkişaf etdirilmişdir. Müəllif, psixi hadisələrin əsas xüsusiyyəti kimi çoxcəhətliliyi önə çəkir. Psixi hadisələrin çoxcəhətli olması faktoru ilə yanaşı, sistemli yanaşmanın mahiyyətini açarkən insan psixikasının səviyyələrinin iyerarxik quruluşuna, onlar arasındakı əlaqələrin qeyri-müəyyənliyinə və yüksək dinamikliyinə, insan xassələrinin müxtəlif ardıcıllığına, psixi hadisələrin dinamikasına və inkişafına, "sistem əmələ gətirən amilin" tədqiq olunan sistemində mövcudluğuna diqqət yetirilir [9].

Beləliklə, sistemli yanaşma aşağıdakı aspektləri nəzərdə tutur:

1) obyektin (sistemlərin) struktunun müəyyənliyini;

2) obyektin (sistemlərin) xarici əlamətlərinin (xüsusiyyətlərinin) öyrənilməsini;

3) ətraf mühitdə şəraitin dəyişməsindən asılı olaraq sistemdə və ya obyektdə dəyişikliklərin müəyyən edilməsi.

İntellektual-yaradıcı səriştələr fenomeninin mahiyyətini araşdırarkən, biz “səriştə”, “intellekt”, “yaradıcılıq” və s. kimi anlayışlarından yan keçə bilməzdik.

“Səriştə” – termini tamamilə fərqli semantik kontekstlərdə, çox vaxt əks mənada istifadə olunur. O, müxtəlif sənədlərdə dəbdə olan xarici söz (kompetensiya) kimi meydana gəlmişdir və obyektiv mövcud olan hansısa pedaqoji problemin başa düşülməsini tələb edən cəhd demək deyildir.

E.V.Domanski Rusiya dövlət sənədlərində istifadəsi dəbdə olan kompetensiya (şəriştəlilik) anlayışının Avropa ilə həm oxşar, həm də məzmunundakı fərqli xüsusiyyətlərinə nəzər yetirir. Onun fikrincə, kompetensiyanın təbiətindəki fərqlilik Şərqin ənənələrindən, özünüdərkin və intuisiyanın inkişafı nöqteyi-nəzərindən ibarətdir. Belə təhlillərlə biz, müəlliflərin “səriştə” və “səriştəlilik” anlayışları ilə bağlı müəyyənləşdirici və fərqli xüsusiyyətləri əks etdirən fikirlərini təqdim etmiş olduq.

S.E. Şişova və V.A. Kalneynin fikrincə, səriştəlilik – əldə edilmiş biliklər əsasında hərəkət etmək qabiliyyətidir (bacarığıdır).

Bilik, bacarıq və vərdişlərdən (nümunəyə uyğun hərəkətlərdən) fərqli olaraq, səriştəlilik universal biliklərə əsaslanan müstəqil fəaliyyət təcrübəsini nəzərdə tutur. Səriştə anlayışı qiymətləndirmə və ixtisasartırma haqqında fikirləri də dəyişir. Vacib olan hər hansı işi təşkil etmək üçün insanın daxili resurslara malik olması deyil, mövcud olanlardan istifadə etmək imkanına malik olmasıdır [8].

Müəlliflər tərəfindən “səriştə” anlayışı “bacarıq” termininin köməyi ilə üzə çıxarılır: Bacarıq xüsusi şəraitdə hərəkətdir. Bacarıq fəaliyyyətdə səriştə kimi təqdim olunur. “Səriştə – bacarığın yaranmasına səbəb olan şeydir” [8, s.79].

Q.Selevkonun fikrincə, səriştə – subyektin məqsəd qoymaq və ona çatmaq üçün daxili və xarici resurslarını səmərəli şəkildə təşkil etməyə hazır olmasıdır. Daxili resurslar deyərkən bilik, bacarıq, vərdişlər, fənnüstü bacarıqlar, səriştələr (fəaliyyət üsulları), psixoloji xüsusiyyətlər, dəyərlər və s. nəzərdə tutulur. Səriştələr –refleksiya təcrübəsi, situasiyalar nəticəsində əldə olunmuş keyfiyyətlərdir [10].

A.V.Xutorski isə tez-tez “səriştə” və “səriştəlilik” anlayışlarını sinonim sözlər kimi işlədir: səriştə – bir sıra müəyyən proseslərə, hadisələrə münasibətdə müəyyən edilmiş və onlara qarşı səmərəli hərəkət etmək üçün zəruri olan, bir-biri ilə əlaqəli şəxsi keyfiyyətlərin (bilik, bacarıq, vərdiş, fəaliyyət üsulları) məcmusudur. Səriştəlilik – insanın müvafiq səriştələrə malik olmasıdır ki, bu həm də fəaliyyətin məqsədinə nail olmaq üçün şəxsi münasibətləri də özündə birləşdirir [12, s.56].

İ.K.Frumin isə yazır: “Fikrimcə indi səriştə anlayışının müzakirəsinə başlamaq, səriştə ilə səriştəlilik arasında fərq axtarmaq, lüğətləri araşdırmaq və maksimum ciddiliyə nail olmaqla məşğul olmaq axmaqlıq olardı. Bizi təhsilin məzmununu ağıllı şəkildə yeniləməyə imkan verən işlə bağlı təsəvvürlər maraqlandırır. Müzakirələrin bu mərhələsində mən səriştəlilik haqqında təsəvvürlərin mürəkkəb real tapşırıqların həlli bacarığı (mövcud imkan) kimi məhdudlaşdırmağı təklif edirəm” [11, s.56].

Eyni zamanda, o qeyd edir ki, pedaqoqlar arasında aparılan çoxsaylı müzakirələr nəticəsində səriştəlilik real problemlərin həllinə yönəlmiş məlumat və bacarıqların sadə birləşməsindən fərqli təhsil nəticəsi tipinə aid edilir [11].

İ.A.Zimnyaya isə “səriştə” və “səriştəlilik” anlayışlarını fərqləndirir. Bu kateqoriyaların məna və əhəmiyyətini təhlil edərək, İ.A.Zimnaya belə bir nəticəyə gəlir ki, “səriştə – insanın gizli psixoloji strukturu (biliklər, təsəvvürlər, iş alqoritmi, dəyərlər və münasibətlər sistemi),

bəzi daxili potensialıdır ki, sonradan insanın səriştəliliyində faktiki fəaliyyət təzahürləri kimi üzə çıxır" [7, s.55].

Beləliklə, səriştəli yanaşmanın mahiyyətinin, onun komponentlərinin və tərkib hissələrinin müəyyənliyinin müəlliflərin başa düşmələri ziddiyyətli olduğu kimi, onun özünün mahiyyəti də bir o qədər ziddiyyətlidir.

Səriştələrin təhsilin normativ və praktik komponentlərinə daxil edilməsi, müasir məktəblər üçün xarakterik olan – şagirdlərin nəzəri biliklər toplusunu yaxşı mənimsədikləri, lakin konkret həyat məsələlərini və ya problemli vəziyyətlərin həlli üçün bu biliklərdən istifadə etməkdə çətinliklərlə qarşılaşdıqları kimi bir sıra problemi həll etməyə imkan verdi. Bu baxımdan əsas səriştələrə xüusi diqqət yetirilir. Bu proses həm beynəlxalq tendensiyaların təsiri altında, həm də müəyyən dərəcədə onlardan asılı olmayaraq inkişaf edir.

Beləliklə, Azərbaycan Təhsil Qanununda və Respublikamızda təhsilinin modernləşdirilməsi ilə bağlı dövlət sənədlərində, şagirdlərin müstəqil fəaliyyət və məsuliyyəti üçün universal bacarıqların, qabiliyyətlərin, yəni əsas səriştələrin vahid sisteminin formalaşdırılmasının vacibliyi təhsil sistemi qarşısında duran vəzifə kimi qeyd edilmişdir. Modernləşdirmə konsepsiyası əsas səriştələri şagirdlərin əldə etdikləri biliklər, təlim bacarıqları,habelə praktiki və nəzəri problemləri həll etmək üçün həyatda iş metodlarından istifadə etməyə hazır olmaq kimi müəyyən etdi.

Əsas səriştələr öz təbiətinə və tətbiq olunma dərəcəsinə görə ən universal səriştələr kimi başa düşülür. Onların formalaşması hər bir tədris fənni çərçivəsində həyata keçirilir, mahiyyət etibarilə onlar fənnüstü hesab olunurlar. Səriştə təkcə bilik və bacarıqlarla məhdudlaşdırılmır. Səriştə praktikada bilik və fəaliyyət arasında mövcud olan münasibətlər sahəsidir. Müxtəlif səriştələrin təhlili onun kreativ (yaradıcı) istiqamətə malik olduğunu göstərir. Xüsusilə kreativ səriştələrə aşağıdakıları aid etmək olar: "təcrübədən yararlana bilmək", "problemi həll etmək bacarığı", "keçmiş və yeni hadisələr arasında əlaqəni üzə çıxarmaq", "yeni həll yolları tapmağı bacarmaq".

Eyni zamanda, şagirdlərin yaradıcı səriştələri ilə bağlı bilik, bacarıq, fəaliyyət metodları və təcrübəsinin bütün kompleksini hərtərəfli təqdim etmək üçün bu bacarıqların göstəriciləri hələ kifayət deyildir.

Əsas səriştələrin vahid razılaşdırılmış siyahısı yoxdur. Səriştələr – ilk növbədə, vətəndaşların hazırlanması üçün cəmiyyətin sifarişindən irəli gəldiyi üçün, belə bir siyahı əsasən müəyyən bir ölkədə və ya bölgədə cəmiyyətin razılaşdırılmış mövqeyi ilə müəyyən edilir. Belə bir razılaşma əldə etmək isə hər zaman mümkün olmur. Məsələn, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı və İsveçrə və ABŞ-ın Milli Təhsil Statistika İnstitutları tərəfindən həyata keçirilən "Əsas səriştələrin müəyyənləşdirilməsi və seçilməsi" adlı beynəlxalq layihəsinin gedişində əsas səriştələrin ciddi tərifi hazırlanmamışdır. Avropa Şurasının "Avropa üçün əsas səriştələr" mövzusu üzrə simpoziumu zamanı əsas səriştələrin ilkin siyahısı müəyyən edilmişdir.

***Nəticə.*** Səriştəli yanaşmanın mahiyyətinin, onun komponentlərinin və tərkib hissələrinin müəyyənliyinin müəlliflərin başa düşmələri ziddiyyətli olduğu kimi, onun özünün mahiyyəti də bir o qədər ziddiyyətlidir.

***Tədqiqatın elmi yeniliyi*** ondan ibarətdir ki, yaradıcı düşünmək bacarığının sistemli dərk olunması mexanizmi və şəxsiyyətin inkişafında onun rolu müəyyən edilmişdir.

***Tədqiqatın praktik əhəmiyyətini*** bunda görmək olur ki, işdə irəli sürülən ideyalardan ali və orta məktəb müəllimləri, tədqiqatçı-tələbələr də istifadə edə bilərlər.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Təhsil qanunvericiliyinin külliyyatı. – Bakı: Qanun, – 2009. – 60 s.
2. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. – Bakı: Çaşıoğlu, – 2010. – 65 s.
3. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurrikulumu). – Bakı, – 2006, – 38 s.
4. Təhsil Haqqında Qanun. – Bakı: Hüquq ədəbiyyatı nəşr., – 2010. – 80 s.

5. Kazımov, N.M. Azərbaycan dilinin izahlı pedaqoji lüğəti / N.M.Kazımov. – Bakı: OKA Ofset, 2011. – 417s.
6. Берталанфи, Л. Общая теория систем: критический обзор / Л. Берталанфи. – М.: Педагогика, –2009. – 234с.
7. Зимняя, И.А. Педагогическая психология: учебник для вузов / И.А.Зимняя. – 2-е изд. – М.: Логос, 2015. – 384с.
8. Кальней, В.А. Мониторинг качества образования в школе / В.А.Кальней, С.Е. Шишов. – М.: Знание, –2018. – 98с.
9. Ломов, Б.Ф. О системной детерминации психических явлений и поведения // Принцип системности в психологических исследованиях. – М.: Наука, –2019. – с.10-18.
10. Селевко, Г.К. Современные образовательные технологии: Учебное пособие / Г.К.Селевко. – М.: Народное образование, –2008. – 256 с.
11. Фрумин, И.К. За что в ответе? Компетентностный подход как естественный этап обновления содержания образования // Учительская газета. – 2012. №78. – с.34-41.
12. Хуторский, А.В. Ключевые компетенции как компонент личностно-ориентированной парадигмы / А.В.Хуторский // Народное образование. – 2013. – №2. – с.58-64.


**L.I.Hajiyeva**

**The Role of Creative Competences in Personal Development**

***Summary***


The study showed that in the process of personality development, basic competencies are understood as the most universal competencies due to their nature and degree of application. They are formed within the framework of each academic subject, but in essence they are supra-subject. Competence is not limited to knowledge and skills. Competence is an area of relationships that exist between knowledge and activity in practice. An analysis of various competencies shows that they have a creative focus. Creative competencies, in particular, include the following: "the ability to use experience", "the ability to solve problems", "identify the connection between past and new events", "the ability to find new solutions".

At the same time, the indicators of these skills are still insufficient to comprehensively present the entire complex of knowledge, skills, abilities, methods of activity and experience related to the creative competencies of students.


***Key words:*** *primary education, creative thinking ability, personality development, educational institutions, competence*

**Л.И.Гаджиева**

**Роль творческих компетенций в развитии личности**

***Резюме***


Исследование показало, что в процессе развития личности основные компетенции понимаются как наиболее универсальные компетенции в силу их природы и степени применения. Их формирование осуществляется в рамках каждого учебного предмета, но по своей сути они являются надпредметными. Компетентность не ограничивается знаниями и навыками. Компетенция – это область взаимоотношений, существующих между знаниями и деятельностью на практике. Анализ различных компетенций показывает, что они обладают креативной (творческой) направленностью. К креативным компетенциям, в частности, можно отнести следующие: «умение использовать опыт», «способность решать проблемы», «выявление связи между прошлыми и новыми событиями», «умение находить новые пути решения».

В то же время показатели этих умений еще недостаточны для того, чтобы всесторонне представить весь комплекс знаний, умений, навыков, способов деятельности и опыта, относящихся к творческим компетенциям учащихся.


***Ключевые слова:*** *начальное образование, способность к творческому мышлению, развитие личности, образовательные учреждения, компетентность*

*Rəyçi: ped.f.d., dos. T.Ə.Nəbiyeva*
*Redaksiyaya daxil olub: 02.05.2025*